№ 255 ISSN 1027-3875 15 oktyabr 2008

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

# 25 MƏZUNLUQ TƏNTƏNƏSİ: FƏRƏHLİ NƏTİCƏLƏR

*«Xəzər Universitəsində əldə etdiyim bilik və bacarığı tətbiq edərək ailəm, xalqım və vətənim üçün faydalı olacağıma and içirəm! Xəzər Universitəsinin şərəfini qoruyacağıma and içirəm!»*

Düz 12 il əvvəl – 1996-cı il sentyabrın 14-də Azərbaycanın ilk özəl ali məktəbi olan Xəzər Universitəsinin 31 məzunu bu andı içərək, Universitənin ilk məzunları kimi tarixə düşdülər. 2008-ci il oktyabrın 5-də isə Universitəmizdə 25-ci məzunluq təntənəsi keçirildi və 131 tələbə məzun oldu. Bu gün ümumilikdə 1342 (1029-bakalavr, 307 magistr, 6 doktor) məzun



arzuladıqları ixtisaslara yiyələnərək, ölkəmizdə və ölkəmizin hüdudlarından çox-çox uzaqlarda müxtəlif sahələrdə çalışır və ya təhsillərini davam etdirirlər. Artıq cəsarətlə deyə bilərik ki, Xəzər Universitəsinin məzunu olmaq nə qədər çətindirsə, bir o qədər də şərəfli və məsuliyyətlidir. Elə buna görə də, əksər tələbələr Xəzər Universitəsinin diplomunun hörmət və nüfuzunu bilərək, hətta təhsil müddətlərinin ciddi surətdə uzanmasına məhəl qoymadan məhz bu Universitənin məzunu olmağa üstünlük verirlər. Bununla bağlıdır ki, son illər başqa ali məktəblərə yüksək ballarla daxil olan, sonradan «Xəzər»ə köçürülən tələbələrin də sayı artmaqdadır.

Bu yaxınlarda başqa bir ali məktəbdən (etika xətrinə ali məktəbin adını çəkmirik) Xəzər Universitəsinə köçürülmək istəyən bir tələbə, «niyə məhz «Xəzər»də təhsil almaq isətyirsən« sualına gülümsəyərək, çox inamla və lakonik cavab verdi: «İstəyirəm ki, iş axtarmaq üçün bir yerə müraciət edəndə bükülə-bükülə yox, «sportsmen» kimi (*biliyimə güvənərək vüqarla* – **İ.İsaxanlı** ) gedim». Bütün bunlar «Xəzər»in diplomuna və bu diploma sahib olan məzunlarımıza böyük hörmət və inamın bariz göstəriciləridir.

Əziz məzunlar! İnanırıq ki, Xəzər Universitəsində əldə etdiyiniz bilik və bacarığınız sayəsində ailəniz, xalqımız və vətənimiz üçün faydalı olacaq, Xəzər Universitəsinin şərəfini həmişə qoruyacaqsınız.

İndi isə Qəbul və Tələbə Şöbəsinin, ilk dəfə olaraq, Universitəmizin məzunları haqqında hazırladığı statistik məlumatlar cədvəlini oxucularımıza təqdim edirik (səh.10) və bundan sonra çalışacağıq ki, tələbələrimiz və məzunlarımızla bağlı müxtəlif maraqlı məqamları özündə əks etdirən statistik məlumatların dərc edilməsi ənənəvi xarakter alsın.

**İsaxan İSAXANLI**,
*Qəbul və tələbə şöbəsinin müdiri*
**Lamiyə NAMAZOVA**,
*Qəbul və tələbə şöbəsinin laborantı*